An Associate of the Crowe Horwath Business Alliance

MAK Azerbaijan Ltd

2 Salyan Road, Building 2, Suite 19/20, AZ 1023 Baku, Azerbaijan; Phone: (+994 12) 437 41 56, 437 41 47
Fax: (+994 12) 437 41 26; E-mail: makbaku@auditmak.az; URL: www.auditmak.az

# Müstəqil Auditorun Hesabatı

«Qala Həyat» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin
Səhmdarlarına və İdarə Heyətinə
Azərbaycan Respublikası, Bakı şəhəri,
R. Behbudov küç., 71, 3-cü mərtəbə.

Biz «Qala Həyat» Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra "Cəmiyyət") 2011-ci ilin 31 dekabr tarixinə maliyyə vəziyyəti, məcmu gəlirlər, səhmdar kapitalında dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlarından ibarət olan əlavə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Rəhbərlik göstərilən maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi üzrə məsuliyyət daşıyır. Həmin məsuliyyətə fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli səhvlər olmayan maliyyə hesabatlarının hazırlanması və düzgün təqdim edilməsi üçün müvafiq daxili nəzarətin təşkili, tətbiqi və saxlanması; müvafiq uçot siyasətinin seçilməsi və tətbiqi; və müəyyən şəraitə münasib olan uçot ehtimallarının müəyyən edilməsi daxildir.

Bizim vəzifəmiz isə həmin maliyyə hesabatları üzrə apardığımız auditə əsaslanaraq rəyin bildirilməsidir. Audit beynəlxalq audit standartlarına uyğun olaraq aparılmışdır. Həmin standartlara uyğun olaraq, bizdən auditin planlaşdırılması və aparılmasını maliyyə hesabatlarında əhəmiyyətli səhvlərə yol verilmədiyinə əmin olacaq tərzdə həyata keçirmək tələb olunur. Auditə maliyyə hesabatlarında göstərilən məbləğlər və açıqlanan məlumatı dəstəkləyən sübutun test əsasında yoxlanılması daxildir. Auditə, həmçinin, tətbiq edilmiş uçot prinsiplərinin və rəhbərlik tərəfindən edilmiş mühüm ehtimalların qiymətləndirilməsi, o cümlədən ümumilikdə maliyyə hesabatlarının təqdim edilməsi üzrə qiymətləndirmənin aparılması daxildir. Biz inanırıq ki, apardığımız audit rəy bildirilməsi üçün kifayət qədər əsas verir.

Bizim fikrimizcə, maliyyə hesabatları 31 dekabr 2011-ci il tarixinə cəmiyyətin maliyyə vəziyyəti və bu tarixdə başa çatmış il üzrə məcmu gəlirlər və pul vəsaitlərinin hərəkəti üzrə Beynəlxalq Maliyyə Hesabatları Standartlarına müvafiq olaraq düzgün və ədalətli təsəvvür yaradır.

«MAK Azərbaycan LTD» MMC-nin

direktoru Zamin Hüseynov

Auditor Nail Seyfulla

AZƏRBAYCAN RESPUBLİKASI AUDIT «MAK AZƏRBAYCAN LTD» AZERBAIJAN REPUBLIC

23 fevral 2012-ci il

Bakı, Azərbaycan Respublikası